# Maarifləndirici kurslar bələdiyyə seçkilərinə hazırlıq məqsədi daşıyır

❒ ***Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid hissəsinin icrası ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) seçki komissiyalarının maarifləndirilməsi layihəsi çərçivəsində oktyabrın 15-dən Sumqayıtda fəaliyyət göstərən 4 dairə seçki komissiyasında seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslara başlayıb.***



Aşağı seçki komissiyaları üzvlərinin bələdiyyə seçkiləri ilə bağlı müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi daşıyan kurslarda Sumqayıt üzrə dairə seçki komissiyalarının sədr, katib və üzvləri, məntəqə seçki komissiyalarının sədrləri iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədris proqramına uyğun olaraq 42 saylı Sumqayıt 2 və 43 saylı Sumqayıt 3 seçki dairələrində kurslar keçirilib. MSK-nın üzvü Ramiz İbrahimov kurslarda çıxış edərək bildirib ki, ölkəmiz ictimai-siyasi həyatda özünəməxsus yeri olan bələdiyyə seçkiləri ərəfəsindədir. Azərbaycan Konstitusiyasının 142-ci maddəsinə əsasən bələdiyyələr seçkilər əsasında yaradılır. Yerli özünüidarəetmə orqanlarının yenidən formalaşmasında mühüm yer tutan növbəti bələdiyyə seçkilərinin də demokratik, azad, ədalətli, şəffaf və beynəlxalq standartlara uyğun keçiriləcəyi birmənalıdır. O, bələdiyyə seçkilərinə hazırlıq məqsədi daşıyan kursların rolundan danışaraq, beş milyondan artıq daimi seçicinin, çoxsaylı namizəd və onların təmsilçilərinin, müşahidəçi və KİV nümayəndələrinin seçki prosesində iştirakının təşkilinə yönəldilən maarifləndirmə tədbirlərinin əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, seçkilərin hazırlanıb keçirilməsi səlahiyyətlərini həyata keçirən dövlət orqanı kimi Mərkəzi Seçki Komissiyasının (MSK) çoxşaxəli fəaliyyətində maarifləndirmə işinin təşkili mühüm yer tutur.

R.İbrahimov seçki komissiyaları tərəfindən seçki subyektlərinin maarifləndirilməsi məqsədilə həyata keçirilən bütün tədbirlərin nəticə etibarilə seçki praktikasının və seçki subyektlərinin hazırlıq səviyyəsinin təkmilləşdirilməsinə, seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsinə dəyərli töhfə kimi dəyərləndirib.

Kurslarda MSK-nın sektor müdiri Ziya Atəşli, şəhər icra hakimiyyəti başçısının müavinləri Akif Quluyev və birinci müavin Teymur Səmədov, məhkəmə hakimləri Rəşad Qoşqarlı və Fikrət Əliyev tərəfindən təqdimatlar keçirilib və müxtəlif mövzular ətrafında müzakirələr aparılıb.

MSK-nın təşkil etdiyi genişmiqyaslı maarifləndirmə layihəsi olan seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar üç gün davam edəcək.